İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

15 YANVAR 2021-Cİ İL №001 (124)

Səh. 2 MEDALIN O BİRİ ÜZÜ - AZƏR MUSAOĞLU YAZIR

Səh. 3 ƏXLAQ - ƏN GÖZƏL CAVAB - HACI BƏKİROĞLU YAZIR

Səh. 4 ÖZÜMÜZDƏN OLAN YADLAR - LAMİYƏ HACIYEVA YAZIR

Səh. 5 FİL QULAĞINDA YATAN - İBRAHİMXƏLİL YAZIR

Səh. 5 QARA GÜN QARALIB QALMAZ - LƏTAFƏT KƏRİMOVA YAZIR

Səh. 6 “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ

Səh. 7 DAĞINIQ DÜŞÜNCƏLƏR - AFİQ MUXTAROĞLU YAZIR

## MƏHDUDİYYƏTLƏR FEVRALIN 1-NƏ KİMİ UZADILIB

Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf naziri Natia Turnava ölkədə koronavirus pandemiyası səbəbindən tətbiq olunan məhdudiyyətlərin fevralın 1-dək qüvvədə saxlanılacağını bildirib.

Onun sözlərinə görə, həmin tarixədək biznes sektoru və nəqliyyatın fəaliyyətinin təhlükəsiz şəraitdə bərpası ilə bağlı görüşlər keçiriləcək.

Nazir qeyd edib ki, səhiyyə sektoru və hökumətin birgə səyləri ilə ölkədəki epidemioloji vəziyyətin sabitləşməsinə nail olunub.

Qeyd edək ki, ölkədə məhdudiyyətlər ötən ilin noyabrın 28-dən tətbiq olunur. Yanvarın 16-dan etibarən şəhər və şəhərlərarası nəqliyyatın hərəkətinin, ticarət obyektləri, açıq və qapalı bazarların fəaliyyətinin bərpa olunacağı gözlənilirdi.



## QARDABANİ VƏ MARNEULİDƏ TƏDRİS ONLAYN REJİMDƏ DAVAM EDƏCƏK

Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Ekaterine Dqebuadze bildirib ki, ölkənin on iri şəhərində məktəblərdə ikinci semestr yanvarın 18-dən distant formatda bərpa olunacaq.

Nazir müavini Gürcüstanın digər şəhər və bölgələrindəki məktəblərdə dərslərin sinif otaqlarında bərpa olunacağını deyib.

E.Dqebuadze qeyd edib ki, Tbilisi, Kutaisi, Rustavi, Telavi, Zuqdidi, Zestafoni, Qori, Poti, Marneuli və Qardabani şəhərləri ilə yanaşı, Acarıstandakı ictimai məktəblərdə də dərslərin onlayn rejimdə tədrisi davam etdiriləcək.



## GÜRCÜSTANDA KORONAVİRUSDAN 2916 NƏFƏR DÜNYASINI DƏYİŞİB




Yanvarın 15-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan **2916** nəfər dünyasını dəyişib. Bu haqda xüsusi yaradılmış www.stopcov.ge saytında qeyd edilib.

Məlumata əsasən, ölkədə koronavirusa yoluxanların sayı **247025** nəfər, sağalanların sayı isə **231385** nəfər təşkil edib.

Ölkə üzrə karantin rejimində **528** nəfər, stasionar nəzarətdə **3670** nəfər olub. COVID mehmanxanalarda olan şəxslərin sayı **638** nəfə olaraq göstərilib.

www.yeniyol.ge - Bizi oxuyun.

yeniyolqazeti@gmail.com - Bizə yazılarınızı göndərin.

Yeni Yol - Bizi izləyin.



# MEDALIN O BİRİ ÜZÜ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Dilimizdə "bir medalın iki üzü", "medalın görünməyən tərəfi", "medalın o biri üzü" kimi parıldayan, cingildəyən söz birləşmələri var. Etimoloji lüğətə görə *(tərtibçilər: Qulu Məhərrəmli, Rafiq İsmayılov)*, bu ifadə XVI əsrdə Avropada din xadimləri əleyhinə başlanmış açıq etiraz hərəkatı ilə bağlı yaranmışdır.

1511-ci ildə ilahiyyatçı, alim və yazar Rotterdamlı Erazmın "Axmaqlığın mədhi" əsəri nəşr olunur. Əsərdə xristian dini və Roma papası ələ salınır. Bundan sonra üzərində papanın şəkli həkk olunmuş jeton medallar buraxılmağa başlayır. Bu medalları tərsinə tutanda papanın şəkli deyil, şeytanın surəti görünürdü. "Medalın tərs üzü" ifadəsi də məhz bundan sonra məşhurlaşmağa və mənfi mənada işlənməyə başlayır.

Bizim bu yazının isə tərsalara və şeytana papışı tərs geyindirənlərə heç bir dəxli yoxdur. Burada medalın o biri üzünü göstərməyə də ehtiyac yoxdur, medal da Ay deyil ki, o biri üzünü görmək üçün kosmonavt olasan, onsuz da kimin yaxasında, döşündə hansı ölçüdə, hansı metaldan ibarət medal gəzdirdiyini hamı yaxşı bilir. Metal demiş, medal da elə metal sözündəndir ki, biz tərəflərdə buna "dəmir parçası" deyib üstündən lazımsız bir əşya kimi keçirlər. Çünki Sovet vaxtı təntənə ilə, hay-həşirlə, toy-bayramla verilən al-əlvan medalları sonradan qoca Tiflisin "Suxoy most"unda 10-15 lariyə turistlərə satılan gördülər. Elə ondan sonra medal etibarını itirib oldu metal – mis, latun, alüminium, dəmir və sair.

Deyilənə görə, o vaxt bu medallar bütün qapıları açırmış, yəni "medal" sözünə bir leksik şəkilçi artırıb yaranan "medallı" sözünün ikinci hecası (dallı) ilə istədiyin hökumət binasının qapısından girmək olurmuş, qılıncının *dalı* da kəsirmiş, qabağı da. Yəni medalı olan həm də *dalı* olan, medallı həm də *dallı* olan demək imiş. Nəzərə alsaq ki, dilimizdə dal – budaq, dallı – budaqlı deməkdir, medallıları gərək ki, o vaxt qollu-budaqlı hesab edirlərmiş. Biz tərəflərdə *dallı* həm də *arxalı, dayaqlı* adama deyirlər, dalı dağa söykənmək, dalında dağ kimi durmaq misalı. Halbuki bu sözü anatomik olaraq da işlədənlər var.

*Sən bir tərsa qızısan,*

*Əydin qəddin dal elədin.* ("İrvahım" dastanı) – burada isə dal qəddi əyri, bükülü ərəb əlifbasının "d" hərfinə işarədir. Medallar qəddimizi əyməsin.

Mətləbdən uzaqlaşdım deyəsən. Hər halda, medal (metal) da olanda gərək olimpiadalarda veriləndən ola, o da ki, qızılından. Deyilənə görə, belə medalların o biri üzü – tərs üzü olmur. Belə medalları dalını günə verməklə əldə edə bilmirsən yəni. Bu medalların düz üzü də, tərs üzü də eyni şeyi göstərir – zəhmət, bacarıq, istedad, güc, zəka, dözüm, iradə və sair. Məsələn, bir şahmatçının istedadının, biliyinin gücünə medal alması, yaşamaq uğrunda mübarizə oyununda yalnız piyada rolunu oynayan minlərin metal almasından daha yaxşıdır, elə xalq üçün də, vətən üçün də. Bir də, baxır medal verənə. Elə metallar var medal verənin kimliyindən asılı olaraq dönüb həqiqi medal olur. Yəni medal alan da, medal verən də ədalətli, vicdanlı olanda medal bütün xalqın, vətənin olur.

Yenə də mətləb üstə gələ bilməyib yazını burda bitirməli oluram. Uzatsam qəzetə sığmaz. Bu gün gündəmdə olan olayların medalının o biri üzünü onsuz da hamınız yaxşı bilirsiniz, heç şərhə ehtiyac da yoxdur.

Sonda eşitdiyim maraqlı bir sözü sizinlə paylaşmaq istəyirəm. Deməli, arxaizm olan *mürəkkəbqabı*ya Borçalıda *"tərsə"* deyirlərmiş. İçi mürəkkəblə dolu olan bu tərsələri şagirdlər məktəb çantalarında daşıyırlarmış və maraqlısı da odur ki, bu qabların ağzı açıq olsa da mürəkkəb tökülmürmüş, calanmırmış. İndi bu tərsəni Tiflisin "Suxoy most" (quru körpü) deyilən bazarından almaq olar, qiyməti isə həmin bazarda satılan medallardan bahadır.

## PARLAMENT AMNİSTİYA AKTI QƏBUL EDİB




Gürcüstan parlamenti "Amnistiya haqqında" qanunu 3-cü oxunuşda qəbul edib. 83 deputat aktın lehinə səs verib.

Qanuna əsasən, amnistiya ötən il dekabrın 11-dək Cinayət Məcəlləsinin 80-ə yaxın maddəsi üzrə ağır olmayan cinayət törətmiş şəxslərə şamil ediləcək. Məhkəmələr əfv olunacaq bütün şəxslərin işlərinə yenidən baxacaq.

Amnistiya aktı ilə 1500-dən çox məhbus azadlığa buraxılacaq.

Qanun qüvvəyə mindiyi gündən bir ay ərzində tətbiq olunmalıdır.

## SƏHİYYƏ NAZİRİNİN MÜAVİNİ: GÜRCÜSTAN ÇİN İSTEHSALI OLAN VAKSİNİN TƏTBİQİ MƏSƏLƏSİNİ NƏZƏRDƏN KEÇİRMİR




Səhiyyə nazirinin müavini Tamar Qabunianın sözlərinə görə, hazırkı mərhələdə Çin istehsalı olan hər hansı bir vaksinin Gürcüstanda tətbiqi məsələsi nəzərdən keçirilmir.

O, Ümumdünya Səhiyyə Təşkilatının Çinin "Sinovac" və "Sinopharm" peyvəndlərini hələ təsdiqləmədiyini qeyd edib.

Nazir müavini bildirib ki, Gürcüstanda "Pfizer", "Moderna" və "Astrazeneka" vaksinlərinin tətbiqinin mümkünlüyünə baxılır.

## BİDZİNA İVANİŞVİLİ SİYASƏTİ TƏRK EDİB



Hakim Gürcü Arzusu Partiyasının sədri Bidzina İvanişvili ikinci dəfə siyasəti tərk edib. Bu haqda o, yaydığı açıq məktubda bildirib.

B.İvanişvili missiyasının başa çatdığını qeyd edib.

Xatırladaq ki, milyarder Bidzina İvanişvili 2012-2013-cü illərdə Gürcüstanın baş naziri olub. O, 2013-cü ildə siyasətdən getsə də, 2018-ci ildə yenidən siyasətə qoşulub və həmin ilin mayından Gürcü Arzusu Partiyasına rəhbərlik edib.

## SEÇKİLƏRDƏ ELEKTRON TEXNOLOGİYALAR TƏTBİQ OLUNACAQ




Gürcü Arzusu Partiyasının icraçı katibi İrakli Kobaxidze bildirib ki, "Gürcüstanda yerli idarəetmə orqanlarına seçkilərdə elektron texnologiyaların tətbiqi planlaşdırılır".

Onun sözlərinə görə, seçki islahatları çərçivəsində səsvermə aparatı və seçicilərin barmaq izləri ilə qeydiyyata alınması üçün avadanlıqların alınması nəzərdə tutulub.

İ.Kobaxidze qeyd edib ki, müasir texnologiyalar istənilən manipulyasiya, həmçinin səslərin sayılması zamanı insanların yol verə biləcəyi səhvləri birdəfəlik aradan qaldırmağa imkan verəcək.

Elektron texnologiyalardan ilk dəfə olaraq gələn ilin oktyabr ayında keçiriləcək bələdiyyə seçkilərində istifadə olunacağı gözlənilir.

## R.T.ƏRDOĞAN GİORGİ QAXARİANI TƏBRİK EDİB



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Giorgi Qaxarianı Gürcüstanın baş naziri vəzifəsinə yenidən təyin olunması münasibətilə təbrik edib.

Bu barədə Gürcüstanın hökumət administrasiyasından bildirilib.

R.T.Ərdoğan təbrik məktubunda Türkiyə və Gürcüstan arasında mövcud strateji əməkdaşlığın və dostluq münasibətlərinin bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə edib.

"Bölgədə dayanıqlı sülh və sabitliyin bərqərar olması üçün fürsətlər pəncərəsinin yarandığı dövrdə sizin müdrik rəhbərliyiniz altında ölkələrimiz arasında əlaqələrin bütün sahələr üzrə davam etdiriləcəyinə əminəm", - deyə R.T.Ərdoğan bildirib.

O, Gürcüstanın hökumət başçısına möhkəm cansağlığı və xoşbəxtlik, dost gürcü xalqına isə firavanlıq arzulayıb: "Qoy Yeni il ölkələrimiz və bölgəmizə sülh və xeyirxahlıq gətirsin".

## GÜRCÜSTANDAKI AZƏRBAYCAN VƏTƏNDAŞLARININ PASPORTLARININ MÜDDƏTİ UZADILIB




Gürcüstanda yaşayan Azərbaycan vətəndaşlarının qanunsuz miqrant durumuna düşməmələri və fəaliyyətlərini hüquqi zəmində tənzimləmələri üçün sahib olduqları və etibarlılıq müddəti 1 yanvar 2020-ci il tarixindən etibarən bitmiş və ya bitəcək olan bütün növ pasportların (diplomatik, xidməti və ümumvətəndaş) etibarlılıq müddəti 1 iyul 2021-ci il tarixinədək uzadılmış hesab olunur.

Bu barədə "Report"un yerli bürosuna Azərbaycanın Gürcüstandakı səfirliyindən məlumat verilib.

Məlumatda qeyd olunub ki, koronavirus pandemiyasının yaratmış olduğu çətinliklər nəzərə alınaraq, müxtəlif xarici ölkələrdə, həmçinin Gürcüstanda fəaliyyət göstərən Azərbaycan Respublikası vətəndaşları ölkəni tərk edərək Vətənə qayıtmaq istədiklərində isə qayıdış şəhadətnaməsinin rəsmiləşdirilməsi üçün səfirliyə müraciət etməlidirlər.

Qeyd edək ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan ilə Gürcüstan arasında sərhədlər 2020-ci ilin mart ayının 14-dən etibarən mövcüd epidemioloji vəziyyətlə əlaqədar olaraq, müvəqqəti bağlanıb.

## TBİLİSİDƏ NİZAMİ GƏNCƏVİ KÜÇƏSİNİN ÜNVAN LÖVHƏLƏRİ YENİLƏNİB




Tbilisidə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyan küçəyə yeni ünvan lövhələri vurulub.

Tbilisi şəhər Şurasının hazırladığı 5 lövhədə şairin adı və soyadı gürcü dili ilə yanaşı ingilis dilində də yazılıb.

Tbilisinin Krtsanisi rayonunda yerləşən kiçik küçə boyu onun adını bildirən lövhələrə son illərdə rast gəlinmirdi. Küçədəki evlərdən birinin darvazasında bu günədək qalan bir köhnə lövhədə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsinin gürcü və rus dilində soyadı səhvən Gəncəli olaraq göstərilib.

Müəllifi İrakli Abaşidze olan və 2008-ci ildə işıq üzü görən "Tbilisi – Küçələr, prospektlər, meydanlar" adlı ensiklopediyada Nizami Gəncəvi küçəsinin tarixi barədə məlumat yer alıb. Topluya əsasən, Tbilisinin köhnə Xarpuxi məhəlləsindəki (XVII əsrdə Seyidabad adlandırılıb – red.) küçə Giorgi Merçuli və Teleti küçələri arasında yerləşir. Küçə XIX əsrdə yaranıb və XX əsrin 30-cu illərində Nizami Gəncəvi döngəsi kimi tanınıb.

Tbilisi ilə yanaşı Kutaisi şəhəri, Marneuli və Qardabani rayonlarında da böyük mütəfəkkirin adını daşıyan küçələr var.

Qeyd edək ki, bu il Şərq poeziyasının görkəmli nümayəndəsi Nizami Gəncəvinin anadan olmasından 880 il ötür. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2021-ci il "Nizami Gəncəvi İli" elan olunub.

*Mənbə: report.az*

## ƏXLAQ - ƏN GÖZƏL CAVAB



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Öncəliklə hər kəsə yeni təqvim ilində uğurlar arzulayıram! Hər keçən il kimi 2020-ci ili də qarşıladığımız kimi də yola saldıq. Pandemiya səbəbi ilə demək olar ki, həyatın durma nöqtəsinə gəldiyi ötən il bir çox əhəmiyyətli hadisələrlə də yadda qaldı. İnşallah ki, qədəm basdığımız 2021-ci ildə virusun da vaksini tapılar və normal həyatımıza qayıdarıq.

Gələk əsas mövzumuza.

İslam dini insanlığa göndərilmiş olan son ilahi dindir. Bu dinə mənsub olanlara müsəlman, dinin əmrlərini yerinə gətirərək ibadət edənlə isə mömin deyilir. İslam dininin banisi son Peyğəmbər olan Həzrət Məhəmməd (s.ə.s), müqəddəs kitabı isə Qurani-Kərimdir. Bilirəm, bir çoxunuzun düşüncəsində "bunları sadalamağına nə ehtiyac vardır" kimi suallar yarandı. Amma bəzən xatırlatmalara ehtiyac duyur insan. Dünyaya uyub əsas təməlləri unuda bilirik. Necə ki, bu gün Allahın əmri olan ibadətləri arxa plana alaraq var-dövlət dalınca qaçırıq. Ancaq ruzini verən həmin o ibadətləri verən Allah olduğunu unudaraq. Biz Allaha tərəf yönəlib onun istədiyi kimi doğru-düzgün, halal yaşasaq ruzumizi də yetirəcək.

Son zamanlarda dünyada İslam dininə və İslam Peyğəmbəri Hz. Məhəmmədin (s.ə.s) mənəvi şəxsiyyətinə yönəlmiş aşağılayıcı və möhtərəmliyinə xələl gətirəcək hərəkət və davranış formalarının sistemli bir şəkildə ortaya çıxması bir müsəlman olaraq bizləri də narahat etməkdədir. Məhz bu səbəblə istədim ki, həm dinimiz, həm də Peyğəmbərimiz haqqında qısa da olsa bir təkrara yol verək.

Tarix boyu bu cür anti-İslam yönlü hadisələr çox baş vermişdir. Ancaq o mübarək insan yaşadığı dövrdə belə onu təhqir edən, ona qarşı tərbiyəsizlik edənlərə qarşı öz fərdi varlığına istiqamətli olub, müsəlman cəmiyyətin dini və ictimai həyatını sarsıdacaq səviyyəyə çatmayan əziyyət və hörmətsizliklərə reaksiya verməyərək, ictimai narahatlıqların ortaya çıxmasına meydan verməmiş, özünə edilən bu əziyyətlər qarşısında kədərini ürəyində basdıraraq Allahın sonsuz mərhəmətinə sığınmışdır. O, elə bir gözəl əxlaqa sahib idi ki, Allah Qurani-Kərimin "Hicr" surəsinin 72-ci ayəsində "(Ey Peyğəmbər!) Sənin həyatına and olsun ki,…" deyə and içir. Başqa bir ayədə isə "Biz səni yalnız aləmlərə rəhmət olaraq göndərdik!" (Ənbiya, 107) deyə xitab olunur.

Həzrəti Peyğəmbər həyatı boyunca heç bir millətin və dinin müqəddəs saydığı şəxsləri və ya məkanları təhqir etməmiş, ümmətinə də bunu qadağan etmişdir. Bütün peyğəmbərləri öz qardaşaları olaraq zikr etmişdir. Bir başqa dinin nümayəndəsinin cənazəsi keçəndə belə ona hörmət olaraq ayağa qalxmış və bununla da digər din nümayəndələrinin dirilərinə olan hörmətini, ölülərinə belə göstərmişdir. Bu da İslam dininin nə dərəcədə tolerant bir din olduğunun göstəricisidir.

Ancaq bu gün heç müsəlman olmayan biri özünü İslam Peyğəmbərinə bənzədərək digər şəxslərin Allahdan və Peyğəmbərdən çəkindikləri kimi ondan da çəkindiklərini ifadə etmişdir. Bəli, deyə bilərsiniz ki, bu bir bənzətmədir. Bənzətmə olsa belə bir millətin, bir inancın müqəddəsləri ilə bənzətmə etmək düzgün deyil. Müsəlmanları təhqir etmədən başqa cür və ya başqa şəxslər üzərindən bənzətməsini edə bilərdi.

Bu hadisə bir provokasiya da ola bilər. Belə hadisələr qarşısında müsəlmanlara yaraşan təmkinli olmaları, İslamın gözəl əxlaqını sərgiləyərək o insanlara həqiqi İslamı göstərməlidirlər.

# ÖZÜMÜZDƏN OLAN YADLAR



Son zamanlar cəmiyyətdə özünü savadlı kimi göstərməyə çalışan bir kütlə meydana gəlib. Məni bu yazını yazmağa vadar edən də məhz onların yazıları və gənc nəsli özlərinin getdikləri yönə sürükləməyə çalışmalarıdır. Deməli, bu kütlə uzun zamandır eyni mövzu üzərində durmadan yazırlar, pozurlar, paylaşırlar, təkrar eyni mövzunu başqa sözlərlə yazaraq, nəticəni yenə əvvəlkindən fərqli olmayaraq bir yerə gətirə bilmirlər.

Biz elə bir milətik ki, özümüzə məxsus həyat tərzimiz, ədəb-ərkanımız, saymadığım bir çox gözəl xüsusiyyətlərimiz var. Bu gün təəssüflər olsun ki, millətimizin illər əvvəl yaşadığı o gözəl xüsusiyyətlər unudulmağa üz tutub, bunun günahı həm bizim zəif iradəmiz, həm də cəmiyyətdə peyda olan avropalaşmağa üz tutmuş bir sıra kütlələrdir.

Deməli, millətimizin xanım-xatın, ağbirçək, bacarıqlı, savadlı, dünyagörmüş xanımları yoxmuş kimi davranaraq millətimizin qadınlarını əskiltmək və geridə qalmış kimi qələmə vermək bəzi kütlələrin məqsədinə çevrilib. Amma əslində heç də belə deyil. Jetonun arxa tərəfini görmək istəməyənlərə göstərmək lazımdır ki, onlar öz əllərindəki zurnanı çalmağa davam etməsinlər. Cəmiyyətdə o qədər aktual məsələlər, problemlər var ki, onunla məşğul olmaq yerinə öz millətini əskildib geridə qalmış kimi qələmə vermək onlara asan gəlir. Asan işdən əl çəkib hər kəsin daşın altına əlini qoymaq vaxtı gəlib çatmadımı?

Yetmədimi başqalarına bənzəmək sevdası üzündən millət olaraq itirdiklərimiz. Nələri itirdik sualını eşidər kimiyəm, sayım nələri itirdik: düzgün nitqlə danışığımızı, böyüyə-kiçiyə hörməti, geyim tərzimizi, yemək-içmək mədəniyyətimizi və s. Bunları niyə itirdik? Özünü savadlı və maarifli kimi göstərməyə çalışan və millətini kimlərəsə görə ayaqlayanlara görə itirdik.

Yetmədimi unutdurduqlarınız, cəmiyyətin ağlına irəli getmək fikrini saldığınız? İrəli getmək əgər öz millətinin sahib olduğu gözəllikləri ayaqlar altına alaraq olursa, mən ömür boyu arxada qalmağa razıyam.

Çəkin əlinizi, dilinizi mənim saf, təmiz millətimin və millətimin qadınlarının üzərindən. Nə qədər ağlını bulandırsanız da, bilin ki, bu millətin xəmiri safdır, təmizdir, pakdır. Sizlərin suvamağa çalışdığınız o kirli suvaq gec-tez qopacaq və millətimin gözəlliyi hər kəsi heyran buraxacaq.

Bir milləti ilk öncə dilini və sahib olduğu gözəllikləri aradan qaldıraraq yox etmək olar. Öz içimizdən çıxan yadlar, ayılın, getdiyiniz yol yol deyil, gec olmadan ağ nədir, qara nədir baxın görün, yoxsa hər tərəf sizlər üçün qara olacaq və seçə bilməyiniz üçün ağ qalmayacaq.

İrəli getmək sərbəstlikdə görülür. Həmin o sərbəstliyin bu gün gətirdiyi nəticə göz qabağındadır. Ondan söz açmağa da gərək yoxdur. Cinayətlər baş alıb gedir. Uzun illər əvvəl nəyə görə bu qədər qətllər olmurdu, cinayət xəbərləri bu qədər çox duyulmurdu, qəlbimizi sızlatmırdı? Çünki çox nadir hallarda görürdük və eşidirdik. Uzaq ölkələrin birində olan bəd hadisəni qəmlənərək seyr edərkən, indi həmin hadisəni qonşu evində canlı olaraq seyr edirik. Sualım var – bunun səbəbini sizlər nədə görürsünüz?

Əgər xoş, rahat, hüzur dolu həyatın yalnız xatirələrdə qalmasını istəmiriksə, o zaman öz kimliyimizə, mədəniyyətimizə, adətlərimizə sahib çıxmalı və içimizdən çıxan yadların da bizə məxsus olduqlarını, ancaq müəyyən səbəblərdən bizdən uzaqlaşdıqlarını və bizləri də getdikləri yola çəkməyə çalışdıqlarını anlamalıyıq. Biz öz yolumuza davam etməliyik və içimizdən çıxan yadları da getdikləri yad yoldan döndərməliyik, döndərməzsək onlar bizləri öz yollarına çəkəcəklər ki, bu da aqibətin xoş olmayacağına işarət edir.

***Lamiyə Hacıyeva (Eminova)***
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Qadınlar Şöbəsinin sədri*

# KOMPÜTER TEXNOLOGİYALARI FƏNNİ ÜÇ PİLLƏDƏ MƏCBURİ TƏDRİS OLUNACAQ



İnformasiya və kommunikasiya texnologiyaları fənninin adı Kompüter texnologiyaları adı ilə əvəz olunub. Həmin fənn indiyə qədər yalnız I, V və VI siniflərin dərs cədvəlində var idi. 2020-2021-ci tədris ilinin ikinci semestrindən 400-ə yaxın məktəbdə fənnin yeni adla tədrisi planlaşdırılır.

Qeyd olunan fənn yeni adla 2021-2022-ci tədris ilinin birinci semestrindən bütün gürcüdilli məktəblərdə II, III və IV siniflərdə məcburi fənn olaraq tədris olunacaq.

Milli tədris planına edilmiş dəyişikliklər nəticəsində yeni Kompüter texnologiyaları fənni başlanğıc pillənin II, III və IV siniflərində həftədə 1 saat keçiləcək. Bu isə müasir tədris tələblərindən irəli gələrək qeyd olunan fənnin başlanğıc pillədə davamlı tədris edilməsini təmin edəcək.

Layihənin təşəbbüsçüsü və təqdimatçısı Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyidir. Qurum pandemiya çərçivəsində fənnin tədrisinin əhəmiyyətini müzakirə edib və dərs cədvəlinə daxil edilməsini belə izah edib:

*“Yeni koronavirus fonunda inkişaf etmiş hadisələr kompüter maarifləndirməsi ilə bağlı problemləri bir daha aydın göstərdi. Distant təhsilin təmin edilməsi üçün qısa vaxt ərzində valideynə, eləcə də şagirdlərə müvafiq bilgi verilməli idi. Kompüter texnologiyaları fənni ilə bağlı yeni konsepsiya hazırlanıb. Konsepsiya pandemiya dövründə texnologiyalarla bağlı bilik və təcrübənin yaradılmasını və uşaq yaşlarından vacib, XXI əsrin müvafiq kompetensiyalarına sahib olmağı nəzərdə tutur. Ona görə də yeni nəsli, gələcəkdə işləməli və yaşamalı olacağı yüksək texnoloji mühit üçün hazırlamalıyıq”.*

# YENİ İLDƏ MÜƏLLİMLƏRİ HANSI YENİLİKLƏR GÖZLƏYİR?

2021-ci ildə məktəblərdə həyata keçiriləcək bir neçə dəyişiklik artıq planlaşdırılıb. Müəllimlər üçün yeni il fərqli düşüncə ilə başladı – şagirdlərin semestr qiymətlərini avtomatik hesablayan elektron jurnal gərginlik yaratdı. Texniki səhvlərə görə şagirdlərin bir qismi hələ də birinci semestrin qiymətlərini bilmirlər. Müəllimlər elektron jurnala 12 yanvar tarixinə qədər bal yerləşdirə bilərdilər. Elekton jurnal distant təhsil dövründə daha vacib və əhəmiyyətli sənədə çevrildi.

İkinci yenilik, müəllimlərin əməkhaqlarının 100 lari artmasıdır. Doğrudur, qeyd olunan əlavə vəd edilmiş vaxtdan daha gec və 50 lari az köçürüləcək. Statusu olan müəllimlərin maaşı yanvar ayından 100 lari artacaq. Pedaqoqların hesabına həmin məbləğdən 80 lari köçürüləcək.

Üçüncü vacib yenilik internet tarifi ilə bağlıdır. Kommunikasiyalar Komissiyasının qərarına görə, şagirdlər və müəllimlər üçün onlayn təhsil dövründə, 2020-2021-ci tədris ilində internet aşağı tariflə əlçatan olacaq. Komissiyanın qərarına əsasən, internet şirkətlərinin məktəb şagirdləri və müəllimlərinə 30 gün müddətinə 20 qiqabayt interneti 10 lariyə təklif etmək hüququ var. Paket çərçivəsində qoşulacaq abunəçiləri Təhsil Nazirliyi müəyyən edəcək. Təhsil Nazirliyi şagirdlər və müəllimlərin güzəştli tarifdən nə vaxt yararlana biləcəyini konkret qeyd etmir. İndiki mərhələdə texniki məsələlər üzərində işlər aparılır.

Bundan əlavə, 2021-ci il xüsusi müəllimlərə də yenilik gətirəcək. Onlar təcrübəçi statusu ilə imtahan verəcəklər və kompetensiyalarını təsdiq edəcəklər. Bu isə onların peşə inkişafına və əməkhaqlarının artmasına təsir göstərəcək.

2021-ci il 500 axtaran və 2900 baş müəllim üçün də yeniliklə başlayacaq. Yanvar ayında onların statusu yüksəldiləcək. 500 “axtaran” statuslu müəllim baş müəllim, 2900 baş müəllim isə aparıcı müəllim statusu qazanacaq.

2021-ci ildə həmçinin təcrübəçi müəllimlər üçün 2020-ci ildə keçirilməyən imtahan da planlaşdırılır. Təcrübəçi müəllimlərə sonuncu dəfə kompetensiyalarını təsdiq etmək və baş müəllim statusu qazanmaq imkanı veriləcək. Direktor olmaq istəyənlər də imtahan gözləntisindədir. 2020-ci ildə pandemiyaya görə direktorlar üçün imtahan müvəqqəti təxirə salındı.

# DİSTANT TƏHSİLƏ QƏDƏR YAZILMIŞ QİYMƏTLƏRİ ELEKTRON JURNALDA QEYD ETMƏK VACİBDİRMİ?

**Distant təhsilə qədər sinif jurnalında yazılmış qiymətlərin elektron jurnalda qeyd edilməsi vacibdirmi?** – Bu, bir çox müəllimin cavabını bilmək istədiyi sualdır.

Bildiyiniz kimi, jurnalda qiymətlərin qeyd olunması və semestr qiymətlərinin düzgün hesablanması müəllimlər üçün problemə çevrilib.

2020-2021-ci tədris ilinin birinci semestri bəzi məktəblərdə tədris başdan distant şəkildə başladı, ancaq əksər məktəblərdə uşaqlar təhsilə sinif otağında başladılar, semestrin ortasında isə distant təhsilə keçdilər. Pedaqoqlar semestr qiymətləndirməsi zamanı nə etməlidirlər? Elektron jurnalda sinif otaqlarında dərs zamanı yazılmış balların qeyd edilməsi vacibdirmi? – Bu suala Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin cavabı belə oldu:

*“Jurnal semestr qiymətlərini hesablayır, buna görə də semestrin ümumi göstəricilərini qeyd etməyiniz vacibdir. Elektron jurnal orta balı hesablayır. Sinifdə və distant təhsili – hər ikisini dəqiq yoxlayın. Yekun qiymətləndirmə artıq olmasın. Həmçinin yazdığınız qiymətləri yoxlayın. Elektron jurnala daxil edilmiş qiymətləndirmə semestr qiymətlərinə 24 saat ərzində təsir göstərir”.*

*Səhifədəki məlumatlar “etaloni.ge” saytından götürülüb.*

*Gürcü dilindən tərcümə edən:*
***Aynurə ƏLİYEVA***

# FİL QULAĞINDA YATAN

Məcazi məna vasitəsi ilə dili daha canlı, daha zəngin-ifadəli, daha çoxçalarlı edən sabit söz birləşmələrinin – yəni frazeoloji birləşmələrin növləri arasında idiomlar, hikmətli sözlər-aforizmlər, ibarələr, zərbi-məsəllər əsas yer tutur. Belə frazeoloji birləşmələrin bir qisminə “qanadlı sözlər” də deyilir. Və həyata Sözlə, daha çox “qanadlı” sözlərlə bağlanan yazıçılara, şairlərə (əlbəttə, belə fikir-münasibət həqiqi söz adamlarını nəzərdə tutur) arada-sırada “qanadlı adamlar” da deyilir.

Anadilli ədəbiyyatımızdan bircə misal gətirməklə kifayətlənirəm: Vaqif Bayatlının 2007-ci ildə yazdığı “Qanadlan, uç, zalım Şuşa” adlı şeiri də var; yenə də məcazi mənada, sən demə, məşhur söz adamlarından dolayı, şəhərlər də qanadlana bilirmiş! Üstəlik də, indi Şuşanın zəfərlə azadlığa qovuşmağından sonra belə çıxır ki, sən demə, adi, sadə adamlar da, məsələn, əsgərlər də qanad çıxara bilirlərmiş! Vaqif bəyin daha bir şeiri var ki, “Güllü xəncər” adlanır. İthafda bu şəkildə yazılır: qanadlı Afaq Məsuda. Bu on iki bəndlik şeirin sonuncu bəndi belədir:

*Vallah, gül də istəmirəm,*
*lap eşqlə də dolmuş olsa.*
*Bəsimdi – xəncərin üstdə*
*bir gül şəkli olmuş olsa.*

Yəni ömürlük işi gil adamlardan gül adamlar “düzəltmək” olan şairə görə, əgər uçmaq, qanadlanmaq, ucalıqlar varsa, qalanı – təfərrüat deyilmi? Hətta xəncər yarası da!

Yoxsa mətləbdən uzaqmı düşdüm?

Bəlkə də iyirmi birinci əsrin 2021-ci ilində bir qədər qərib səslənir, hətta bəzilərinə qəribə-gülməli də gələ bilər. Amma “fil qulağında yatan” Fəxrəddini bəlkə də elə bu “qanadlı sözlər”lə “qanadlı adamlar” yıxdı! Atası erkən vəfat edən Fəxrəddini ilk dəfə kim “fil qulağında yatan” deyə çağırmışdı? Sanki kimsə xatırlamır. Sanki Fəxrəddin elə fil qulağında yatmaq üçün könüllü gəlmişdi dünyaya!

Frazeoloji birləşmə olaraq, fil qulağında yatmaq – heç bir şeylə maraqlanmamaq, heç bir şeydən xəbəri olmamaq, müxtəsəri, “xəbərsiz” anlamını versə də, əslində, Fəxrəddin çox şeydən xəbərdar idi. Əlbəttə, yaxşı həvəskar rəssam olmağından və zoologiyanı, onun bölmələrini əzbər bilməyindən savayı...

Qohumları, qonşuları Bakıdan, Tiflisdən evlər, mənzillər alırdılar; ikisini alanda birini də mütləq kirayəyə verirdilər ki, qoyduqları məbləği diriltsinlər. Maraq alverindən mebel alverinə keçirdilər, maşınları partiya dəyişən kimi dəyişirdilər. Dar gün üçün yığırdılar, balalarına, hətta gözəl-göyçək sevgililərinə də ağ gün ağlayırdılar.

Kimə deyirsən?

Fəxrəddin fil qulağında yatmaqda idi. Bir filfilə köynəkdə qışda da ağartdığı ikiotaqlı ev sanki Süleyman mülkü idi ki, dururdu!

Mən Dəllərdə, Fəxrəddin Süsən-Sünbüldə yaşasaq da onu belə yaxın tanımağımın tək bircə səbəbi var idi: o da bundan ibarətdi ki, mən də filləri sevirdim. Məsələn, fillərin su altında üzə-üzə qarşı sahilə keçmələrinə dəqiqələrlə baxırdım, amma təbii ki, televizorda!

Görünür, Fəxrəddin ya “fil qulağında yatmaq” sindromundan qurtarmaq üçün çabalayırdı, ya da məcazi məna dolu bu hissləri sonacan yaşamağa tələsirdi. Yəni bütün hallarda bu sualın bir mükəmməl cavabı olmalıydı axı: nədən, sözün məcazi deyil, həqiqi mənasında, az qala cəmi Süsən-Sünbül fil qulağında yata-yata, özünü elə göstərir ki, guya fil qulağında tək bircə nəfər yatır? Və doğrudan da həqiqi yatmaq, həqiqi korluq hansıdır?

Fəxrəddinin bir fil fobiyası-qorxusu da var imiş: qorxurdu ki, günlərin bir günü fillərin kökü də, məsələn, dinozavrlar misallı, kəsilə bilər. Üstəlik də, eşidəndə ki, Kar Kərimin (tamahının qulu olan ağır eşitməzmi?) ortancıl oğlu Qalib, Qahirə tərəflərdə fil dişi alverinə qurşanıb, az qalıbmış Fəxrəddinin nəfəsi kəsilə. İndi Fəxrəddinin deyil, bizim medal ölüsü olan məntiqlə belə çıxmırmı ki, “fil qulağında yatan” xəbərsiz ola-ola, fil qulağını adicə yelpik bilən kəs fil dişi alveri eləyir!

Bir dəfə Fəxrəddin mənə bir oyuncaq ağ fil bağışlayıb demişdi:

– Müəllim, bu gün (sentyabrın 22-si idi) Filləri Beynəlxalq Müdafiə Günüdür, eşitdim nəvəniz dünyaya gəlib, zəhmət olmasa, alın, bu hədiyyə onun üçündür.

Təşəkkür elədim.

Biz müəllim ola-ola fillərin ayaqüstə yatmağından tutmuş, o boyda məsum filin arıdan qorxmağına qədər, uşaqlar hamısını Fəxrəddindən eşitmişdilər: fillər həm də böyük etibar sahibi imiş, məsələn, məşhur fil təlimçisi vəfat edərkən onun cənazəsi üçün iki böyük fil dəstəsi (sürü deməyə dilim gəlmədi) təlimçinin evinəcən gəlibmiş. Bəzi ölkələrdə fillər üçün məxsusi Fillər günü də bayram edilirmiş!..

İndi bildim ki, vaxtı ilə güclü leysandan sonra daşqına məruz qalmış Tiflis zooparkına ilk köməyə gedənlərdən biri niyə məhz Fəxrəddin imiş?

...İndi həmin yay tətilindən sonra buralardan gedəli beş-altı il olar Fəxrəddinin. Onu fəfidi sayanlar var idi, amma o, bizim bölgə tarixində ilk olaraq zoopsixoloq oldu! Bu ixtisas nadir ixtisaslardandır. O, fillərin həyatını, davranışlarını öyrənməklə məşğuldur. Təsəvvür edirsinizmi?! Fillər yaşamayan məmləkətdən filhəqiqətləri öz həyat tərzinə çevirən adam da çıxırmış!

Dünən xəbər yayıldı ki, bəs deməzsənmi, adını gizli saxlamağı xahiş edən bir nəfər soydaşımız öz halal pulu ilə hansı kasıb ölkənin zooparkı üçünsə Tailanddan iki fil alıb. Amma hələlik göndərə bilmir, çünki pandemiya ilə bağlı oralarda da bəzi məhdudiyyətlər var imiş. Sümüyümə nəsə damdı...



*P.S.*

Məhdudiyyətlər azalan kimi xəbər çıxdı ki, adı gizlin saxlanılan soydaşımızın aldığı iki fil, təkcə çörəyə yox, həm də fillərə ehtiyacı olan – amma bir nəfər də olsun milyarderi olmayan – həmin kasıb ölkənin zooparkına təhvil verilib. Xəbər çıxan günün səhərisi mən də bir bağlama aldım: içində Portuqaliya yazıçısı Joze Saramaqonun (port. Jose Saramago) Türkiyə türkcəsində bir kitabı və üzərində ağ fil şəkli olan uşaq ayaqqabısı (təbii ki, nəvəm üçün) var idi. Kitab “Filin yolculuğu” adlanırdı.

...Oxumuş olanınız olar. Çünki filin yolu-səyahəti həm də Alp dağlarından, qarlı aşırımlardan keçir. Siz də ki, bildiyim qədər, Alp dağlarının vurğunusunuz. Təbii ki, şəkillərdə də olsa.

...Az qala unutmuşdum. Kitabda bir avtoqraf da var. Özü də Saramaqonun öz sözləri ilə: *həyatımızda heç də hər gün fil boy vermir!*

...Yazılanlara görə, qürbətə aparılan fillər oralarda vətən üçün həzin-həzin, səssiz-səmirsiz, amma nisgil dolu sükutla qəribsəyirlər, daha bizim kimi... bəzən bağıra-bağıra yox...

***İBRAHİMXƏLİL***

# QARA GÜN QARALIB QALMAZ

Allah insana çəkə bilməyəcəyi dərdi, qaldıra bilməyəcəyi yükü verməz deyirlər. Dərdin varsa, Allah səni unutmayıb deməkdir. Nəzərindəsən, sınağındasan, səni “bişirir”, möhkəmlənməyin üçün, ayaqlarını yerə daha sağlam basmağın üçün. Dəmir ayaqlarını yerə vurduğunda yer titrəsin, göy yarılsın deyə sənə fürsət sunur. “Yaxşı gündə hər kəs yanındadır, ancaq bir balaca başın sıxışsın, dostunu-düşmənini tanı” deyir. Və bunların hamısı üçün sadəcə zaman lazımdır. Elə bir zaman ki, düşdüyün yerdən qalxanda bir daha büdrəməyəsən, büdrəsən də yıxılmayasan.

“Pis günün ömrü az olar” deyib babalarımız. Haqq əyilər, amma qırılmaz. Üstündən illər keçsə də, mütləq yerini tapar. Qara gün qaralıb qalmaz, Qarabağın qara bəxti kimi...

30 il əzildik, vurulduq, yıxıldıq, amma şükürlər olsun ki, ayağa dura bildik. 30 ildə zaman bizi bişirdi, bərkitdi. Necə deyərlər, küllərindən var olduq. Asanmı oldu? Xeyr.

30 ilin dərdini 44 gündə öz çiyinlərinə alıb əbədi aparan igidlərimiz, biz rahat yaşayaq, Vətənimiz var olsun deyə, millətimiz başıuca olsun deyə canlarından, ailələrindən, övladlarından keçən şəhidlərimiz, sizsiz çəkdiyimiz qəhqəhələrə görə bizi bağışlayın. Gecə yuxusundan “ata” deyə diksinib oyanan şəhid balaları, qolumuzu övladlarımızın boynuna sarıb, qoxlaya-qoxlaya isti yatağımızda yatdığımız üçün bizi bağışlayın...

Sevinclə qəm qardaşdır. Biz bu gün əkizik bu qardaşlara. Bir gözümüz güldüsə, bir gözümüz ağladı. Azad olunan hər qarış torpağın xəbərinə sevincdən göylərə yüksəldiksə, alınan hər şəhid xəbərinə həmin göylərdən yerə çırpıldıq. Acısını iliklərimizə qədər hiss etdik. Hamımız əsgər anası, hamımız əsgər bacısı olduq bu günlərdə. Ancaq unutmadıq ki, “bayraqları bayraq edən üstündəki qandır”. Bu gün şəhid anası qürurla deyir, “mənim oğlum şəhiddir”, “Vətənim azaddır”, “Vətən sağ olsun”. Nə qürurlu, nə uca millətik, İlahi! Nə gözəl yaraşır bu millətə azadlıq, birlik! Dünyanın hər yerində yaşayan 50 milyon Azərbaycan türkü özünə qayıtdı artıq. Gözlər, ürəklər Qarabağa dikəldi, “arzulara Qarabağ ana oldu”, “İnşallah”lar “şükürlər olsun”la bitdi, min şükür. Kəsilən qurbanların qəbul oldu, gözün aydın millətim, gözün aydın, Vətənim!

Daşına-torpağına qurban olduğum Azərbaycanım, azadlıq sənə necə də yaraşır. Hər zərrən gülür, Cıdır düzündə yallı gedən əsgərlərimizə göylərdə şəhidlərimiz eşlik edir, hər yerdə Məhəbbətin “Laçın”ı, “Xudayarın təsnifi” duyulur, hər yan Xarı Bülbül qoxur artıq. Rahat uyuyur artıq məzarında Xan qızı Natəvanım, ruhu şaddır Poladımın, Mübarizimin, Fəridimin. Layla deyir “Qarabağ şikəstəsi” Xocalıda şəhid olan günahsız körpələrə. Hər evdə yeddidən yetmişə milyonlarla əsgərin tək ürək olub sənə “can fəda” deyir, Qarabağ! Bəxti qara qalmayan, Qarabağ! “Dəmir yumruq”la düşmənin başını əzən Ulu Türkün şanlı övladları, Allah sizi qorusun! Birliyimiz pozulmasın, əbədi dalğalansın al bayrağımız! Dünya durduqca var olsun, uğruna “minlərlə can qurban olan” ana Vətənimiz, ata yurdumuz!

***Lətafət Kərimova***
*Mollaoğlu orta məktəbinin tarix fənni üzrə baş müəllimi*

# İOSİF QRİŞAŞVİLİNİN “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” ƏSƏRİNDƏN BİR PARÇA

## HAMAM



*(əvvəli ötən sayda)*

Hamam...

Sanki adi bir şeydir...

Hamamda çimirlər, bədənlərini təmizləyirlər. Bu, hər yerdə, həmişə belədir. Lakin Tiflisdə hamam?!.

O həddindən artıq orjinaldır və ələlxüsus, Tiflissayağıdır.

Xan oyunu, Amkroba, Aşuğoba, Yumruq davası, Arifana *(Arifana bayramlarında çobanlar mal-qarasını otardıqları ailələrə baş çəkir və azuqələr (əridilmiş yağ, yumurta, çörək) yığırdılar. Topladıqlarını çölə aparırdılar. Orada yemək hazırlayır və yeyib-içirdilər. Buna arifana deyirdilər - M.M.),* Riqispuri *(Böyük ziyafət. Rusiya üsul idarəsi daxil olana kimi Tiflisdə növbə ilə çörək vermə, daha doğrusu, dost-tanışlar üçün növbə ilə süfrə açmaq bir qayda idi. Birinə üç ayda bir dəfə növbə gələr, ya gəlməzdi. Əyləncənin və bir-birinə yaxınlaşmağın ən yaxşı üsulu idi - M.M),* Oba *(Xatoba, Cvaroba - M.M.),* qəhvəxanalar, şifahi nitq, küçə tamaşaları, şənlik bağları, Kürün sahilləri və sair – dədə-babadan bizə gəlib çatan bütün bu adətlər, əyləncələr, ənənələr öz mahiyyəti ilə özünəməxsus kultu, bir növ tiflislilərin avarqoz *(Mövhumatçılığa görə, müalicəvi qüvvənin və ya himayəçinin xüsusiyyətlərinin yazıldığı və sinədən asıldığı əşya - M.M.)* kimi bağırlarına basdıqları və göz bəbəyi kimi bu qaraçoxelilərin içki düşkünlüyü ənənəsi özünü fəda etmənin ehtiyatla qoruyan dini meyxoşluğu yaradır.

Onlar üçün nə gecə var, nə gündüz:

**“Mən ki, sərxoşluq edirəm, sənə mane olmuram ki, qardaşım,**
**Cənablar, ya da sən, ey xeyirxah insan!**
**Əzab-əziyyətlə, halallıqla bir loxma çörək tapıram,**
**Bütün həftəni bax, beləcə tərimi silirəm,**
**Bazar günü isə dostlarımın arasına çıxıram.**
**Göy qaraçoxeli papağını başına yan qoyuram.**
**Bizim oğullarımız quş kimi doğulur.**
**Bu gün tapdım, bu gün yeyirəm, xoşbəxtəm!**
**Oh, nə deyim, o milyonun sahibinə,**
**Qutuda pulu bağlayır, özü ölür acından!**
**Mən daim sərxoşluq edirəm, sənə mane olmuram ki, qardaşım?**
**İçən uşaqlarda, di, pis nə gördün?**
**Mən də kişiyəm, mənə belə niyə baxırsan?**
**Mən də başıma örtmüşəm namus papağını!” (Avksenti Saqareli, “İveriya”, 1885-ci il, № 1).**

**Qaraçoxeli həmişə ilk hisslə və ilk təəssüratla yaşayır.**

**Çox hallarda o bütün həftənin gəlirini bir gündə havaya sovurur:**

**“Bütün həftəni tərimi hey belə silirəm,**
**Bazar günü isə dostlarımın arasına çıxıram.”**

Tiflisli yeyib-içməyi sevir, o, öz həyatının ən yaxşı anlarını bu “içki içmələrə” qurban verir.

Serqi Mesxi – bu ilk gürcü publisisti – bir şəhər qaraçoxelisini bu sözlərlə xarakterizə edir: “Qəm-qüssəsizdir, yeyib-içməyi sevəndir, əliaçıq və quş kimi qayğısızdır. Çörək və şərabı varsa xoşbəxtdir və əgər üstündə də motal pendiri və xiyar da varsa, onda bu dünya onun vecinə deyil. Ortacala bağı onun arenasıdır! Yalnız bu gün bir loxma çörək olsun, sabah Allah kərimdir! Tay-tuşları, dostları üçün özünü öldürmək bir quruşa da dəymir. Harda haqsız bir şey görsə bağırar, xeyir iş üçün, kim olur olsun, boynuna sarılar, qucaqlayıb öpər. Ona israrlı kimi görünməyin, yoxsa başına elə cür gülər ki, qəlbimi sındırar. Nəsə ona bir təhqir yetirsən, doqquz kiloluq yumruq hazır varıdır” *(Bax: Serqi Mesxinin əsərləri, S. Pirtsxalavanın nəşri).*

Qaraçoxelilər özlərinin sağlam təbiətlərində böyük enerji daşıyırdılar və bu dəryaya dönmüş imkanı bilmirdilər hara sərf edələr.

Budur, elə götürək hamamı da!

Birbaş insan dəhşətə gəlir, necə sağ-salamat ürəyi və zədəsiz ciyərləri vardı bu camaatın ki, meyxoş və sərxoş halda hamama gedirdilər və axan kükürdlü suyun atmosferasında, demək olar ki, iyirmidörd saat ərzində kef çəkir, vaxt keçirirdi!

Qədimdə hər qaraçoxeli o qədər sağlam, sifəti qıp-qırmızı və yanaqlarından qan damırdı ki, sanki hər yay yaylağa getmək əvəzinə artıq qanı çıxartmaq üçün hamama gedirdi və qəşəngcə qırxılmış boynuna kotoşi *(Öküz buynuzu və ya da “uzun saplaqlı balqabaq, boyuna qoyulan süliklərin üstünü örtürdülər “xarab qanı” yığmaq üçün - M.M.)* qoydururdu.

Hamam qaraçoxeli üçün bohemanın elə bir tərkib hissəsi idi ki, onsuz da kefi kef hesab etmirdi. Buna görə də onların bağlarda başlamış kefi, şəksiz, hamamda başa çatırdı.

Əvvəllər hamam onu arzu edənlər üçün həmişə açıq idi. Camaat səhərdən axşama kimi orada qala bilirdi. Hamam bəzən şəhərə gələn kəndli üçün mehmanxananı da əvəz edirdi: Malı ağıla bağlayır, özü isə iki şaa pula bütün gecəni hamamda rahatca yatırdı. Əlbəttə, qışda bu ucuz sığınacaq daha xoşagəlimli olurdu.

Qadınlar hamama həftədə bir neçə gün ayırmışdılar. Bir gün qadınlar çimirdi, o biri gün isə kişilər. Hovuzlar əvəzinə qayanın oyulduğu və hamamda isə məşəlin yandığı vaxtlar da olub.

Qədimdə qızla oğlan hamama birgə getmirdilər. Əksinə, qadınlar cəhd edirdilər ki, onların hamama getdiyini kişilər görməsinlər. Buna görə də hamama gedəsi olan qadınlar sübh açılanda səhər tezdən gedirdilər, axşam şər qarışanda qayıdırdılar. Qadınlar hamama təkcə çimməyə getmirdilər, özləri ilə yuyulası paltarları da aparmalı idilər. Yuyulası paltarı boxçaya doldururdular, dükan şəyirdlərinin çiynindən asırdılar. Toxmağı da *(islanmış paltarı döyəcləmək üçün - M.M.)* əlinə verirdilər və odur ki, özlərinin çoluq-cocuqlarını qabaqlarına qatırdılar və bütün karvan hamama yola düşürdü.

Burda isə həmişə bir əndişə baş verirdi: Yerdən ötrü savaş, söz-gap, dava-dalaş başlayırdı. Dolçalarla, toxmaqlarla dalaşırdılar, bir-birlərinin saçlarını yolurdular. Bir-birinə qarğış tökürdülər. Əcdadları da yaddan çıxartmırdılar. Ölüləri qəbirdən çıxardırdılar, dirilərə lateyir tökürdülər. Bir sözlə, onda heç bir əyləncə olmurdu və bu qadınlar da “böyük məmnuniyyətlə” hamamda vaxt keçiridilər!

Qadınların ümumi hamamı olaraq yalnız Qala hamamı adlanan hamam hesab olunurdu və burda olan nizamsızlıq, darısqallıq və çirklik heç yerdə yox idi. Əgər bir yerdə dalaş və çığır-bağır düşürsə deyirlər: “Xocanın hamamıdır?”

Bu Qala hamamını eləcə də xədim Xoca Ağa Məhəmməd şah Qacarın hamamı adlandırırdılar. O, Tiflisi alarkən (1795-ci ildə) bu hamama girərək, “Tiflisin gözəlliyinə heyran olur, bir an belə bulanmayan, müalicəvi müqəddəs su onun xoşuna gəlir”. Lakin düçar olduğu xəstəlikdən müalicə oluna bilmədiyinə görə hirslənmiş və elə bu hamamların da yerlə yeksan edilməsini əmr etmişdir *(Teymuraz Batonişvili, “Siskari”, 1862-ci il, sentyabr, səh. 17.)*

Yenə bizim çimən qadınlarımıza qayıdaq.

Yarı kölə qadınlar, çadraya bürünmüşlər və ərlərindən qorxanlar nə ilə əylənməli idilər? Hara gedəydilər? Onların əyləncəsi kilsə və hamam idi ki, burada da sərbəst şəkildə bir-birini görə, qeybət qıra, söhbət edə bilərdilər.

Bu qadınlar üçün bu məşhur deyim yad idi:

“Danışmaq gümüşdürsə, susmaq qızıldır”.

Onlar hər yerdə həmişə danışırdılar. Bu hamam da onların lağ-lağı yeri idi. Ərəblərin bir atalar sözü də var: “Əgər söhbət istəyirsən hamama get!”

Hamamda qadınlar bütün günü qalırdılar. Elə orada qəlyanaltı və nahar edirdilər. İmkanlı ər öz arvadına hamama nahar göndərirdi. Ələlxüsus, həmin gün üçün sifariş olunan fırın tavasını və ya qapaqlı gil qab ilə buğlama. Bəzisi isə hamamın pilləkanında boynu bükük halda oturub yavan pendir-çörəyini ləzzətlə yeyirdi.

Sonra çay içmə başlayırdı. Hamamın paltar dəyişdirilən dəhlizində dişi tökülmüş qoca qarı kimi zümzümə edən nəhəng samovar dururdu. Samovarın ətrafında çay stəkanları əsgərlər kimi sıralanmışdılar və yanlarında tüfənglər əvəzinə qaşıqlar düzülmüşdü. Samovarın başında isə ata minmiş baş sərdar kimi çaydan kükrəyir və hirslənmək əlaməti olaraq qapağı qaldırır və taqqıldadırdı *(A. Axnazarov: “Şeirlər və səhnələr”, 1912-ci il, səh. 101).*

Budur, bu çılpaq arvadlar bu samovarın ətrafında oturub bütün günü çayla məzələnirdilər. Vorontsovun özü bu mənzərəni görsəydi bu sözü deməyə daha məcbur olmazdı: “Dağlara bizim samovar gəlib çatanda Qafqazda onda əmin-amanlıq olacaq” *(“Речи, сказанные на Кавказких вечерах в Петербурге 1861-1972”, Петерб., 1873-cü il, səh. 14)*

Təsəvvür edin, qadınların da özlərinin aşıqları var idi – Geraqermiaşanların gözdən əngəlli Mayası özünün mahnıları ilə sabunlanmış və xınalanmış qadınların mərəkəsini əyləndirirdi. Bu, onların klubu da idi, teatrı da. (Petre Mirianaşvili məni əmin edir ki, qadınlar hamamda loto da oynayırdılar. Mənim tərəfimdən toplanılan məlumatlara görə, bu, hələlik təsdiqlənmədi).

Bundan başqa, qadınlara hamamda özlərinin hələ yenə də istifadədə qalan çadra altında adi vaxtlarda qapı-bacada itən tualet və bahalı bəzək əşyalarını sərgiləmək imkanı verilirdi.

Qadın özünün təzə aldığı paltarını, şübhəsiz, hamamda geyinməli idi. Mən çadraya bürünmüş daşınan torba kimi yeriyən ağ çadralı qadını görmüşəm. Onun qızıl saplarla tikilmiş başmaqları çadranın uclarından siçanlar kimi gözlərini bərəldirdilər. Azğuda *(Beldən yuxarı qolsuz qadın geyimi - M.M.)* sıxılmış iki “Qartal yumurtası” kişilərin diqqətini cəlb etmirdi. Onlar yalnız gözlərə baxırdılar! Aha, bu parıldayan gözlər müəyyən edilməyən istəklə işıl-işıl işıldayırdı. Buna görə də türklər söyləyirlər: “Kiməsə qadağanları oxumaq istəyənlər qadınların gözlərinə baxsınlar”.

Xalq şeirində deyilir:

**“Qadınların hamamı yer üzünün bədəli,**
**Yerin dibində inşa olunmuş hovuzlar daşdandır.**
**Kim girsə, eləcə edəcək, necə dağın qarı kimi,**
**Qadın və gəlin ordan çıxır, ağacın çiçəyi kimi”.**

Əlbəttə, ara düzəldən qadınlar hamamda öz peşələrini də unutmurdular. Bir çox gözəl qadının taleyi hamamda həll olunurdu. Hamamda bir çox etibarlı “qadın və gəlin” xoşbəxt olub və bir çox lüt qadının da çoxlu eyibləri aşkar edilib *(Hamamda gələcək gəlinlərin yoxlanılması bir qayda olaraq müəyyən edilmişdi. Qızın hamamda qoltuğunun altındakı vəzi yoxlayırdılar ki, sonra ərinin əlində, onların fikrincə, yeyimcilə çevrilməyə idi. Çox hallarda qızı güldürürdülər ki, dişlərinin düzülüşünü görə bilsinlər. Söhbət zamanı yaxınlaşırdılar, görsünlər ki, gələcək gəlinin ağzından qoxu gəlmir ki. Dodaqların uclarını ölçürdülər. Balaca və qısa boy qız birinci dərəcəli gəlin kimi hesab olunmurdu. “Bala, – ata tez-tez öz oğluna deyirdi, – elə qız almalısan ki, yorğanda itirməyəsən”).*

“Qıza papaq at, əgər yıxılmasa, ərə vermək üçün yetkinləşib”. Güman ki, dünyagörüşün təsiri ilə elə olurdu ki, çox hallarda, hələ üyüşməyən, qamətini bərkitməyən tamamilə yeniyetmə qızcığazı qırx yaşındakı çirkinin birisinə ərə verirdilər.

Müəllifi olmayan bir şeir mövcuddur ki, buradan da belə “yeniyetmə qızın taleyinin hamamda həll olunduğu və ara düzəldən qadının yardımı ilə özünə arvad etmək üçün hansısa bir qocaya “hamamdan satıldığı” görünür.

Qəlbi qırılmış qadın ah-nalə edir:

**Mənimki kimi acı tale qismət olmayıb heç kimə.**
**Məni pisləməyin, tay-tuşlarım, özümə nifrət edirəm.**
**Hamamda satdılar, heç də bunu bilmədim mən.**
**Sən demə, indi bildim dünyanın qanunlarıdır.**
**Gəncəm mən, qəlbim cücərir ağcaqayın kimi,**
**Damarlarımda qaynayır qan, qaynamış su kimi.**
**Gözlərim moruq kimi, dodaqlarım mərcan kimi.**
**Yanaqlarım qırmızı-açılmış qızılgül kimi.**
**İndi cövhərəm mən, yeniyetmə və növcavan,**
**Ərim vardır nəsə duza, hisə qoyulmuş ətdir, taqətdən-haldan düşüb.**
**Məni baba kimi sığallayır, qocadır, xəstədir.**
**Aman Allah, sən öldür onu, kim ki, məni lənətə gəlmişə urcah etdi.**

*(Sətri tərcümə)*

*(ardı gələn sayda)*

*Gürcü dilindən tərcümə edən:* **Mirzə MƏMMƏDOĞLU**

AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ

# DAĞINIQ DÜŞÜNCƏLƏR



Kirayə mənzilimdən çıxıb arxa həyətə düşürəm. Qafamda hansı mağazaya gedəcəyimin, nə alacağımın planı özümü payız havasının qoynuna atıram. Hava əməllicə soyuyub, əynim də nazik. Eybi yox, yolun yaxındır. Boran aparmaz, qorxma. Özümə təsəlli verirəm. Əlavə motivasiya kimi bir şey yəni.

Polsumerster küçəsinə çıxıb, sola dönürəm.

Hava xeyli qarışıqdır. Yağış nə yağandan yağana oxşayır, nə kəsəndən kəsənə. Arada günəş soyuq-soyuq gülümsəsə də, can qızdıran istisini haradasa salıb itirmişə bənzəyir. O üzdən də üzündə-gözündə bir utancaqlıq, bir günahkarlıq hiss olunur. Suçuqmuşluğu da belə düşünməyə vadar edir. Küləyin arada bir coşması ilə adamların bürünüb-bürmələnmələri arasında heç bir vaxt fərqi yaranmır.

Payız rəng bolluğuna düşmüş rəssam kimi ağacların yaşıl donunu qırmızının, sarının müxtəlif tonlarıyla naxışlayıb. Küçələrdə, səkilərdə uçuşan yarpaqları külək bükülümlərə, daldalara toparlayıb. Sanki məqsədi xəzələ dönmüş bu yarpaqları kimdənsə gizləməkdir.

Caminin yanından keçirəm. “Toros” fırınını arxada qoyuram. Dönüşdə bir isti çörək almaq pis olmaz. “Yeşil Market”ə də girəsiyik ha, unutma. Bunları da alış-veriş siyahıma əlavə edirəm. Siyahı deyəndə də, beynimin bir küncünə yazıram.

Soyuq yağış damlaları altında “Bhambra” hind pizzaçısının önündə dururam. Heç özüm də bilmirəm niyə dayandığımı. Məkanın yenilənmiş reklam lövhəsimi diqqətimi cəlb edib, yoxsa səkidən bir qədər yuxarıda ilk baxışda gözə dəyən Tac Mahalın rəsmimi? Anşıra bilmirəm. İndus olmaz yəqin ki? Müsəlmandır yüzdə yüz. Nəyinə gərəkdir, qurddan quşluq edirsən? İndicə cücüyün çıxacaq. Özümü danlayıram.

Aptekin önündə xeyli ağzı-burnu maskalı adam növbəyə durub. Yaz gələnə qədər belə olacaq. Apteklərə axın. Bu virus zəhrimar da bir bəla oldu. Görən gerçəkdirmi? Allah-allah, sən nə təhər adamsan, soyuq iliyinə işləyir onun dərdinə qalsan.

“Alperen Reisen” aviabiletlərin satışı ilə məşğuldur. Evə qayıdanda bileti burdan da almaq olar, niyə uzağa gedirsən? O vaxta qədər də yollar açılar. Yaxşı da, gedəndə alarsan, axşamın soyuğu düşür, bir tərpənişin olsun.

“Western Union”. Niyə durdun, soruşmaq da ayıb olmasın. Alacağın, verəcəyinmi var? Cibində quşlar cikkildəşir, siçanlar oynaşır.

Bir türk pizzaçısını, bir çinli yeməkxanasını arxada qoyuram. Bir az qabaqda bələdiyyənin klinikasıdır. Yerlimiz burda işləyir, eləmi? Hə də, guya bilmirsən, hər dəfə soruşursan. Deyəsən, arvadı da gəlib işləməyə. Baxsan iki eyni soyad. Bəs deyirdin gedib görüşəcəm, nə oldu? Əşşi, ayıbdır, sonra nə fikirləşər, nə fikirləşməz. Deyirlər Almaniyada min azərbaycanlı həkim çalışır. Ay maşallah! Bu da o mindən biri, indi də oldular iki. Amma onların soyadını qürbətin bir küçəsində oxumaq adama ləzzət edir. Düz demirəmmi? Marketdə “Azərçay”a rast gələndə də sevinmişdin. Vallah, uşaq ağıllısan, yüzlərlə çayın arasında “Azərçay” görüb bu boyda adam və sevinib. Kiri, eşidən olmasın, vallah, adamı qınayarlar.

“Kauf.net”in müştərisi hər vaxt bol olur. İçəridə yenə tünlükdü. Ay camaat, koronovirus var, məsafə gözləyin, yazıqsınız. İndi də bunun dərdini çəksən? Kasıba heç nə olmaz, canı bərkdir. Varlıdır dəymədüşər, yanından yel keçməyə bənddir ki, vay oram, vay buram deyə. “Kauf.net” sekond hənd – ikinci əl dükanıdır. Almaniyada nə ikinci əli? Kasıba ikinci əl, kiminsə köhnəsi hər yerdə yarayır. Elə Almaniyada da. Mağazada 10-12 avroya əyin-başını təzələyə bilərsən. Təpə-daban, başdan ayağa.

Fotostudiya. Buyur, fotosessiyaya. Nə şəklin düşər amma? Yeri, sən Allah.

Bu da “Kaman süs”. Bu da bizim çiçi ağıllı türklər. Sünnət, toy, nişan dəm-dəsgahı satırlar. Yekə adamsan, buralıq bir işin varmı? Nə alasısan? Heç nə. Düzdür? Yolu rahat keç, gör bir maşının altına düşə bilərsənmi? Gözün ayda, çayda qalıb. Bu gün sənə nə olub? Doğru sözümdür, vallah.

“Sparda Bank”da da işin olmamalıdır. Bəlkə də var, mənə demirsən. Sənin qarnıyın altını bilmək olmaz. Heç “Netto” ya, elə “Aldi”yə də girməyin gərək deyil. Bu totalizatorluq da bir işin yox. Bəlkə kazinoya girəsən? Yaxşı, sən canın, ağlından o da mı keçir?

Hə, “Doy-doy ocakbaşı”nı keçdinmi, çatıbsan. “Yıldırım” köşkə. O ağzını şorba yandırmış kimi ütələk danışan, dediyinin çoxu qanılmayan Dənizli balası bu dəqiqə üyüdüb tökər, başına torba salar, sənin də ağlın artar. Başına yer qəhətdir elə bil. Bu qədər yol basa-basa onun üçün gəlirsən də, bu lalıqqa sənin başına corab hörsün. Nə qədər demək olar. Sənin bütün işin belə deyilmi? Əcəbsandal, həftəbecər, qarmaqarışıq. Mən də səndən ağıl umuram.

Amma öz aramızda, bu türklər qazanmağın yolunu bilirlər ha. Daşdan pul çıxarmağı bacarırlar. “Eminönü səfası”nı gördün ki? Kiçik furqonun qabağı müştəri ilə dolu. Verdiyi də nədir? Alayanıq, qarayanıq. Əl boyda çörəyin arasında bir tikə balıq və ya beş-üç döyülmüş ət tikəsini cızıldadıb-bızıldadıb “buyur” eləyirlər. Pulu da elə şirin dillə alırlar ki, ruhun da incimir.

...Hə, gəl indi bu qədər yolu başından yağış döyə-döyə qayıt. Allahın bir çətirisə yoxdur başına tutasan...

**Afiq MUXTAROĞLU**
*Almaniya, Hessel*
*28 oktyabr 2020*

# 2020-Cİ İLİN UDUZANLARI VƏ QAZANANLARI



2020-ci il öz gözlənilməz hadisələri ilə yadda qaldı – yanğınlar, təbii fəlakətlər, siyasi və hərbi qarşıdurmalar, ticarət savaşları və təbii ki, hər kəsi evində həbs olunmağa məcbur edən pandemiya böhranı. Ötən il bu hadisələr hər bir insanı müəyyən dərəcədə məhdudlaşdıraraq, gəlir mənbələrinin qısıtlanmasına, gələcəklə bağlı planlarında gecikmələrə və ya dəyişikliklər etmələrinə səbəb oldu. Bu isə öz növbəsində ailələrin aylıq gəlirlərinin azalmasına gətirib çıxardı. Daha az gəlir daha az tələbat anlamına gəldiyindən ailələr əlavə xərclərdən boyun qaçıraraq, vəziyyətin sabitləşəcəyi zamana qədər gözləməyə başladılar. Ölkələr isə əhalinin azalan tələbatı qarşısında aciz hala düşdü və demək olar ki, dünya ölkələrinin 90 %-ində iqtisadi artım sürəti ya azalmağa başladı, ya da ki, tamamilə istehsal qabiliyyətini itirdi.

Buna baxmayaraq, qalan ölkələr isə öz böyümə sürətlərini sabit saxlaya bildilər. Təəccüblü olanı isə bu ölkələrin başda Çin olmaqla, əsasən Şərqi Asiya ölkələri olmasıdır. İndiyə kimi baş verən bütün böhranlardan daima zərərsiz və ya ən az ziyanla ayrılan Qərb dünyası bu dəfə iqtisadi baxımdan ən çox zərbə alan tərəf oldu. Belə ki, 2020-ci il üçün Çin və ona qonşu digər şərq ölkələrində iqtisadi böyümə müsbət olduğu halda, Şimali Amerika və Avropada bu göstərici orta hesabla 8-10 % geridə qaldı. Böyük iqtisadi itkilərlə üzləşən Qərb ölkələrində 2020-ci il həmçinin irqçi və mədəni baxımdan da tənəzzül ili oldu desək, fikrimcə, heç yanılmarıq. On illərlə demokratiyanın mərkəzi hesab edilən ABŞ-da və Avropada baş verən ksenofobik şüarların yüksəlişi Qərb ölkələrinin dünyanın gözündə illərdir formalaşdırdığı özlərinin mükəmməllik modelini yerlə bir etdi.

2020-ci il təkcə itkilərlə yox, əldə edilən müəyyən müsbət dəyişikliklərlə də yadda qaldı. Xüsusilə də ilin sonuna yaxın Cənubi Qafqazda baş verən hadisələr illərlə hökm sürən işğal faktorunu və soyuq qonşuluq münasibətlərinə köklü dəyişiklik gətirdi. Regionumuzda illərdir ki, əməkdaşlığa yönələn çağırışlar nəhayət ki, bəhrə verməyə başladı. Bu isə qlobal arenada regionumuzun tez bir zamanda qızğın münaqişə nöqtəsi olmaqdan çıxaraq sabit və əməkdaşlığa hazır bir zonaya çevriləcəyinə zəmin yaradır.

Ötən il baş vermiş digər müsbət hadisə isə insanların yeni texnologiyalara olan maraqlarının artması oldu. Məhz bu səbəbdən yeni texnoloji araşdırmalara və elmə olan maddi yatırımlar əvvəlki illərlə müqayisədə bir neçə dəfə artmış oldu. Xüsusilə də kosmik araşdırmalarla bağlı təkcə dövlət deyil, həmçinin özəl sektorda da canlanma yaşandı. Buna misal olaraq, ilk özəl kosmik şirkət ünvanı alan “SpaceX” şirkəti artıq “Amazon” şirkətinin təsis etdiyi “Blue Origin”lə rəqabət halında irəliləməyə məcbur olacaq. Ekspertlər sağlam rəqabət halında yaxın gələcəkdə bu sahədə də nəzərəçarpan irəliləyişlərin olacağını güman edirlər.

***Səlahəddin PİRİYEV***
*Tbilisi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin tələbəsi*

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "იენი იოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 15 YANVAR 2021-Cİ İL №001 (124)

## TÜRKİYƏDƏ TƏHSİL ALMAQ İSTƏYƏNLƏRİN NƏZƏRİNƏ

### YÜKSƏK HƏDƏF

Türkiyə Bursları/təqaüdləri Türkiyədə yüksək səviyyədə təhsil alma imkanları təklif edir.

Türkiyə Bursları/təqaüdləri beynəlxalq tələbələrə və araşdırmaçılara Türkiyənin ən prestijli universitetlərində təqaüdlü təhsil və araşdırma imkanı təqdim edən əhatəli bir təqaüd proqramıdır.

### MÜRACİƏT

Müraciətlər yalnız Türkiyə Bursları internet ünvanından **(https://www.turkiyeburslari.gov.tr/ )** həyata keçirilə bilər. Onlayn müraciət türk, ərəb, ingilis, fransız, rus, fars, ispan və Bosniya dilində mümkündür.

*Təqaüdlər bakalavr, magistratura, doktorantura və araşdırma sahələrinə aiddir.

* Bakalavr və akademik səviyyə üçün olunan müraciətdə təqaüdlə birlikdə universitetə və kafedraya yerləşdirilmə də təmin olunur.

**Təqaüd miqdarı:**

*Bakalavr tələbələrinə ayda 800 TL*
*Magistratura tələbələrinə ayda 1100 TL*
*Doktorantura tələbələrinə ayda 1600 TL*
**Araştırmaçılar üçün ayda 4000 TL*
*Dövlət məmurları və akademiklərin türk dilində ünsiyyət proqramı (KATİP) üçün ayda 2000 TL***

*Yalnız aylıq təqaüdü əhatə edir.

**Aylıq təqaüd, yataqxana, təyyarə bileti, mədəni və sosial aktivlikləri əhatə edir.




Türk dili kursu (1 il)
Yataqxana / Sığınacaq
Universitetin ödənişi
Aylıq cib xərci
Birdəfəlik təyyarə bileti
Sağlamlıq sığortası
Universitetə və kafedraya yerləşdirmə

## YENİ İLDƏ 51 NƏFƏR PİROTEXNİKADAN XƏSARƏT ALIB

Yeni il günlərində pirotexnikadan xəsarət almaqla bağlı təcili tibbi yardım mərkəzində ölkə üzrə 51 çağırış qeydə alınıb. Onlardan 36 nəfəri xəstəxanaya yerləşdirilib.

Paytaxt Tbilisidə xəsarət alanların 36 nəfərindən 27-si xəstəxanaya yerləşdirilib. Bölgələrdə isə 15 nəfər pirotexnikadan xəsarət alıb ki, onlardan 9-u xəstəxanaya yerləşdirilib.

Həmçinin spirtli içkilərdən zəhərlənmə ilə bağlı 108 çağırış qeydə alınıb. Onlardan 44 nəfəri xəstəxanaya yerləşdirilib.

*Mənbə: tv4.ge*



## BİDZİNA İVANİŞVİLİNİN NƏ QƏDƏR PULU VAR?



2012-ci ilin mart ayına olan məlumatlara əsasən, Bidzina İvanişvilinin mülkü 6,4 milyard dollar təşkil edib. "Forbes.com" saytına görə, rəsmi şəkildə siyasətə gəldikdən sonra, 2013-cü ilin mart ayında B.İvanişvilinin mülkü 5,2 milyard dollara enib.

Bugünə olan məlumata görə isə, B.İvanişvilinin mülkü 4,8 milyard dollar təşkil edir. O, "Forbes"in milyarderlər siyahısında 573-cü yerdədir. Belə çıxır ki, son 9 ildə B.İvanişvilinin mülkü 1,6 milyard dollar azalıb.

Qeyd edək ki, Bidzina İvanişvili biznes-karyeraya Sovet dövründə, Rusiyada 1990-cı illərdə dəmir filizinin əldə edilməsi, bank və daşınmaz əmlaka sərmayə qoyuluşu ilə başlayıb. O, öz səhmlərinin əksəriyyətini 2003-2006-cı illərdə, qalan hissəsini isə Gürcüstanda baş nazir seçilənə qədər – 2012-ci ildə satıb.

*Mənbə: bpn.ge*

## 2020-Cİ İLDƏ GÜRCÜSTANIN TURİZM SEKTORU 2,5 MİLYARD DOLLAR İTİRİB



2020-ci ilin 11 ayı ərzində Gürcüstanın beynəlxalq turizmdən gələn gəliri 82 % azalıb və 527 milyon dollar təşkil edib. Bu məbləğin böyük qismi (427 milyon dollar) məhdudiyyətlərdən əvvəl Gürcüstana gəlmiş beynəlxalq səyahətçilərdən əldə edilib. Məhdudiyyətlərin tətbiq olunmasından və uçuşların dayandırılmasından sonra Gürcüstan turizmdən yalnız 100 milyon dollar əldə edib.

2020-ci ilin turizmlə bağlı yekun hesabatına əsasən, beynəlxalq səyahətçilərin sayı illik olaraq 7,608,656 nəfər, yəni 81 % azalıb və 1,749,308 nəfər təşkil edib. Bu səyahətçilərin böyük qismi Gürcüstana ilk məhdudiyyətlər tətbiq olunana qədər gəlib.

Gürcüstan ötən ildə təxminən 2010-cu ildə olduğu qədər səyahətçi qəbul edib.

2020-ci ildə Gürcüstana daha çox aşağıdakı 15 ölkədən səyahət edilib:

1. Türkiyə – 335 949 səyahətçi, ötən illə müqayisədə azalma – 71,0 %;
2. Azərbaycan – 295 175 səyahətçi, ötən illə müqayisədə azalma – 80,7 %;
3. Ermənistan – 261 295 səyahətçi, ötən illə müqayisədə azalma – 80,9 %;
4. Rusiya – 209 169 səyahətçi, ötən illə müqayisədə azalma – 85,8 %;
5. Gürcüstan (qeyri-rezident) – 140 848 səyahətçi, ötən illə müqayisədə azalma – 71,2 %;
6. Ukrayna – 42 428 səyahətçi, ötən illə müqayisədə azalma – 79,6 %;
7. İsrail – 25 791 səyahətçi, ötən illə müqayisədə azalma – 87,4 %;
8. İran – 17 053 səyahətçi, ötən illə müqayisədə azalma – 88,0 %;
9. Özbəkistan – 14 470 səyahətçi, ötən illə müqayisədə azalma – 13,8 %;
10. Belorusiya – 14 340 səyahətçi, ötən illə müqayisədə azalma – 78,3 %;
11. Qazaxıstan – 13 779 səyahətçi, ötən illə müqayisədə azalma – 86,7 %;
12. Polşa – 10 690 səyahətçi, ötən illə müqayisədə azalma – 87,9 %;
13. Almaniya – 9 338 səyahətçi, ötən illə müqayisədə azalma – 89,5 %;
14. Hidnistan – 8 364 səyahətçi, ötən illə müqayisədə azalma – 84,7 %
15. ABŞ – 7 400 səyahətçi, ötən illə müqayisədə azalma – 84,1 %.

Statistikaya görə, ötən ildə Gürcüstan səyahətçilərin 80,5 %-ni quru yolla qəbul edib. Hava nəqliyyatı ilə ölkəyə daxil olmuş səyahətçilərin sayı isə 95 % azalıb.

*Mənbə: bm.ge*

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

**Redaktor:**
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
**Qrafik dizayn:**
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.